ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Şəhidlərimiz son mənzilə yola salındılar

**Aprelin 11-i saat 16:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini minaatan və iriçaplı silahlardan istifadə etməklə atəşə tutublar. Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alınıb, atəş mövqeləri susdurulub. Ordumuz tərəfindən görülən cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki veriblər. Ermənistan tərəfinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları Zalov Vidadi Nizami oğlu, Həsənov Elşad Qabil oğlu və Tağıyev Səbuhi Gündüz oğlu şəhid olublar.**









Ermənistan ordusunun təxribatının qarşısını alarkən şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu Vidadi Zalov Abşeron rayonunun Saray qəsəbəsində son mənzilə yolsa salınıb. Mərasimdə şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Şəhidin cənazəsi Saray qəsəbəsində yerləşən Şəhidlər qəbiristanlığında torpağa tapşırılıb.










Təxribat nəticəsində şəhid olan Ağstafa rayon sakini, 1994-cü il təvəllüdlü Həsənov Elşad Qabil oğlu son mənzilə yola salınıb. Ağstafa şəhər Şəhidlər xiyabanında izdihamlı keçən dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin və ictimaiyyətin nümayəndələri, Qarabağ müharibəsi veteranları, gənclər iştirak ediblər.









Düşmənin Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində törətdiyi təxribat nəticəsində şəhid olan Tağıyev Səbuhi Gündüz oğlunun nəşi Naxçıvana gətirilib.

Qəhrəman şəhidimizin nəşi Naxçıvan Beynəlxalq Hava Limanında qarşılandıqdan sonra ailəsinin yaşadığı Şahbuz rayonunun Badamlı qəsəbəsinə yola salınıb.

Qarşılanma mərasimində dövlət, hökumət və ictimaiyyət nümayəndələri, eləcə də şəhidin ailə üzvləri iştirak ediblər. Şəhidimizin nəşi Badamlı qəsəbəsində torpağa tapşırılıb.

Səbuhi Tağıyev 1998-ci ildə Şahbuz rayonunun Şada kəndində anadan olub. Ailəsi Badamlı qəsəbəsində yaşayır.

*AZƏRTAC*